# Zaqatalada yüksək bal toplayan məzunlar



**Ən yüksək bal toplayan Gözbarax kənd tam orta məktəbinin məzunu Oruc Muradov və bacısı Səma Muradova**

***Zaqatala rayonunun ümumtəhsil müəssisələrində 2019/2020 –ci tədris ili müvəffəqiyyətlə başa vurulub. Pandemiyaya (COVİD-19 virusuna) qarşı aparılan mübarizə tədbirlərinə görə, karantin rejiminin tətbiq olunması ilə əlaqədar cari ilin mart ayından təhsil ocaqlarında fasilə yaranıb. Bu vacib tədbirlərə baxmayaraq təhsil işçiləri – məktəblilərlə sıx əlaqədə olublar və müxtəlif vasitələrlə tədrisi davam etdiriblər. Elə buna görədə Zaqatala rayonunun bütün məktəblərində 2020/2021 –ci tədris ilinə, müvafiq şəraitinə görə tətbiq olunmuş şərtlər əsasında uğurla başlayıblar. Zaqatala Rayon Təhsil Şöbəsinin müdiri Habil Qurbanov söhbət zamanı bildirdi ki, rayonda 67 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bu təhsil ocaqlarında 17008 (on yeddi min səkkiz) şagird təhsil alır. Onlardan 1266 (bir min iki yüz altmış altı) nəfər məktəbə hazırlıq qruplarında təhsil alanlardır.*** Habil müəllimin söylədiyinə görə yeni tədris-dərs ilində məktəbin birinci sinifə qəbul olunanların sayı 1799 (bir min yeddi yüz doxsan doqquz) nəfərdir. 2019/2020 –ci tədris ilində Zaqatala rayonunun ümumtəhsil məktəblərini 880 nəfər bitirib. Bu barədə isə məlumat verən Zaqatala Rayon Təhsil Şöbəsinin məsləhətçisi Rəna Abdurahmanova bildirdi ki, həmin məzunlardan ali məktəbə sənəd verənlərin sayı 582 məzundur. Məzunlardan 21-i 600, 40 –ı isə 500 baldan yuxarı toplayıb. Rəna xanımın sözlərinə görə, rayonun ümumtəhsil məktəblərini bitirən məzunlardan 402 nəfəri ali məktəblərə keçid balı toplayıb və yüksək bal toplayanlar əsasən I, III və IV qrupları seçib və onlar demək olar ki, seçdikləri ali təhsil ocaqlarına qəbul olunublar. Zaqatala Rayon Təhsil Şöbəsinin müdiri Habil Qurbanov söhbət zamanı qeyd etdi ki, rayonun ümumtəhsil məktəblərində yeni tədris ilinə tam hazırlıq işləri görülüb, bütün təhsil müəssisələri dizenfeksiya olunmuş, müvafiq tibbi ləvazimatlarla təmin olunmuş, müəllimlərin hamısı tibbi müayinədən və testdən keçirilmişdir. Sentyabrın 15 –dən ibtidai siniflərdə tədris başlayan gündən rayonun bütün məktəblərində Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin qərarlarına əsasən tətbiq olunmuş bütün qaydalara əməl olunurdu, məktəbin ərazisinə valideynlər və kənar şəxslər daxil olmurdu. Pedaqoji kollektiv və şagirdlər təhsil müəssisələrinə maskasız daxil olmurdular və hər kəsə ciddi nəzarət olunurdu. Hal-hazırda isə Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən təhsil ocaqlarında noyabrın 2-dək tətildir. Təhsil müəssisələrində dizinfeksiya tədbirləri davam etdirilir.





**Şəhid Oruc Rəsulov adına Muğanlı kənd tam orta məktəbinin məzunları – Aysel Qurbanova və Taleyə Mehrəliyeva**

***Qeyd etdiyimiz kimi cari tədris ilində Zaqatalada 21 nəfər məzun 600 baldan yuxarı toplayaraq məktəbi qırmızı attestatla bitiriblər. Rayon üzrə ən yüksək bal toplayan əsasən Gözbarax kənd tam orta məktəbinin məzunu Muradov Oruc Vaqif oğludur. Məktəb direktoru Cərulla Mustafayevin bildirdiyinə görə imtahanların yekun nəticələrinə görə 670 bal toplayan Oruc Muradov məktəbin ən nümunəvi, məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edən və fənnlər üzrə keçirilən olimpiadaların zona yarışlarının qalibi olan məzundur. Direktor bildirdi ki, Orucun bacısı Səma Vaqif qızı da məktəbi əla qiymətlərlə bitirib və ali məktəbə qəbul imtahanından 415 bal toplayıb. Qeyd edək ki, məzun qardaş və bacı öz arzularına qovuşublar. Yüksək bal toplayan Oruc Muradov Azərbaycan Dövlət Tibb Universitetinin Tibb fakültəsinə, bacısı Səma Muradova isə Bakı Slavyan Universitetinin məktəbəqədər təhsilin pedaqogika və metodikası fakültəsinə daxil olublar. Tələbə adı qazanan Muradovların anası Kəmalə Muradova onların təhsil aldıqları məktəbdə ibtidai sinif müəllimәsidir.***



**Mamrux kənd tam orta məktəbini Qızıl medalla bitirən Musa Musayev**

***Təhsil Naziri Emin Əmrullayevin əmri ilə Zaqatala rayonu Mamrux kənd tam orta məktəbinin fitri istedadlı məzunu Musa Bədrəd oğlu Musayevi yüksək nəticələr görə Qızıl Medalla təltif edib. Musanın orta məktəbdə təhsil aldığı dövrdə təhsil uğurları çox olub.Uşaqlıqdan Hüquqşünas olmağı arzulayan Musa Musayev 2 dəfə Tarix fənni üzrə rayon, zona və respublika olimpiadasının qalibi olub. O, yüksək intellektual, dünyagörüşü, biliyi olan məktəblilərin yarışdığı, Respublika Təhsil Nazirliyinin layihəsi olan və İctimai Televiziya kanalında keçirilən, yayımlanan "Əlaçı" tele yarışmasında I yeri tutub.*** Mamrux kənd tam orta məktəbinin əlaçı məzunu 2 dəfə "ölkəmizi tanıyaq" devizi ilə keçirilən, məktəblilərin iştirak etdiyi Zaqatala rayonunu təmsil edərək (Lənkəran şəhərində) yarışmalarda da qalib olub. Məktəb illərində asudə vaxtlarını ancaq səmərəli keçirən Musa daima biliyini, dünya görüşünü artırmağa, biliyini daha da təkmilləşdirmək üçün rayonda fəaliyyət göstərən "Kainat Tədris Mərkəzi"ndə dərs məşğələlərində iştirak edib. O, Mamrux kənd tam orta məktəbinin intellektual səviyyəli, fitri istedadlı və yüksək bilikli məzunu olub. Musa məktəbin tarix müəllimi Sakit Həsənovaya isə həmin fənni yüksək tədrisinə görə ömür boyu minnətdardır.Qeyd edək ki, onun qardaşı İsmayıl Bakı Slavyan Universitetinin Regionşünaslıq fakültəsinin 4–cü kurs tələbəsidir.

Zaqatala rayonu Muğanlı kənd şəhid Oruc Rəsulov adına tam orta məktəbi qabaqcıl təhsil müəssisələrindəndir. Məktəbin direktoru təcrübəli pedaqoju Nizami Cavadov bildirdi ki, bu tədris ilində 35 nəfər IX və 20 nəfər şagird isə məzun olub. Məktəbin pedaqoji kollektivinin səyi nəticəsində məzunların əksəriyyəti yüksək bal toplayıblar. Cari tədris ilində məktəbin məzunlarından Aysel Elman qızı Qurbanova 606 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə, 601 bal toplayan Taliyə Məşədi qızı Mehvəliyeva isə Dillər Universitetinin İngilis dili fakültəsinə qəbul olunublar. Məktəb direktorunun sözlərinə görə məktəbi müvəffəqiyyətlə bitirən onlarla məzun xarici ölkələrin və ölkəmizin müxtəlif ali təhsil müəssisələrində təhsil alırlar.



**Mina Nəzirova adına 1 saylı Yeni Suvagil kənd tam orta məktəbinin məzunu Mahmud Səmədzadə**

Rayonun qabaqcıl təhsil ocaqlarından Mina Nəzirova adına Yeni Suvagil kənd 1 saylı tam orta məktəbini qırmızı attestatla bitirən Mahmud Eldar oğlu Səmədzadə isə ailə ənənələrini davam etdirərək, yüksək bal toplayaraq ali məktəbə qəbul olunub. Mahmud təhsil aldığı dövrdə təhsil uğurları qazanaraq – 648 bal toplamış və arzusuna qovuşmuş, Bakı Mühəndislik Universitetinə ingilis dili təhsilli Proqramçı ixtsasına qəbul olunmuşdur. Qeyd edək ki, Mahmudun anası Səhərgül müəllimə kənd məktəbini qızıl medalla bitirmişdir. Böyük bacısı Lalə də orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Azərbaycan Dillər Universitetini bitirmişdir. Digər bacısı Aytac Səmədli isə qardaşının təhsil aldığı məktəbi 602 balla bitirərək Bakı Mühəndislik Məktəbinə daxil olub və 4 –cü kurs tələbəsidir. Murad Səmədzadə ilədə söhbət zamanı bildirdi ki, təhsilini xarici ölkələrin proqramı əsasında alacaqdır.





**Zaqatala şəhəri Şıxəli Qurbanov adına 3 saylı tam orta məktəbini yüksək bal toplayan məzunları Xədicə Aslanova və Məryəm Məlikova**

2019/2020 –ci tədris ilində Zaqatala şəhərinin nümunəvi təhsil müəssisələrindən olan, Şıxəli Qurbanov 3 saylı tam orta məktəbini müvəffəqiyyətlə bitirənlər çoxdur. Məktəbin direktoru əməkdar müəllimi Elmira Hacıyeva söhbət zamanı qeyd etdi ki, virus xəstəliyi ilə bağlı təhsildə yaranmış fasilələrə baxmayaraq – məzunlardan əksəriyyəti yüksək bal toplayıblar. Məzunlardan ən fərqlənənlər isə Xədicə Hacı qızı Aslanova və Məryəm Nurəddin qızı Məlikova olublar. ***Məktəbi 641 balla bitirən Xədicə - Azərbaycan Dövlət Tibb Universitetinin müalicə profilaktika fakültəsinə qəbul olunub. Zaqatala Rayon Diaqnostika Mərkəzində Uroloq həkimi olan atası deyir ki, qızı uşaqlıqdan onun kimi həkim olmaq arzusunda olub, məktəbdə əla oxuyub, fənn olimpiadalarının qalibi olub, etimadını doğruldub və arzusuna qovuşub. Hacı həkim qızının yüksək bilik almasında məktəbin pedaqoji kollektivinə xüsusilə də Firuzə, Nəcibə müəllimələrə və məktəbin direktoru Elmira xanıma minnətdardırlar. Həmin məktəbin digər məzunu Məryəm Məlikova isə 626 bal toplayaraq Bakı Dövlət Neft Sənayesi Universitetinin İnformasiya Texnologiyaları fakültəsinə qəbul olunub. Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində müəllim işləyən atası Nürəddin Məlikov deyir ki, arzusuna qovuşan sevimli qızı Məryəm dövlət hesabında – təhsilini ingilis dilində ABŞ –da alacaq. Qeyd edək ki, tələbə adını qazanan Məryəmin anası Firuzə müəllimə - Zaqatala şəhər Şıxəli Qurbanov adına 3 saylı tam orta məktəbinin qabaqcıl müəllimlərindəndir.***

Tələbə adını qazanan bütün tələbələrin valideynləri sevinc içərisindədirlər. "Gözünüz aydın olsun" tələbə valideynləri. Tələbə adını qazanan gənclər artıq qəbul olunduqları təhsil ocaqlarında qeydiyyatdan keçiblər. Tədrisin başlanğıcını isə səbirsizliklə gözləyirlər. Onlar çox nikbindirlər. Çünki, onlarla etdiyim söhbətlərimdən məlum oldu ki,tezliklə dünyada tüğyan edən COVİD virusunun qarşısı alınacaq və Qarabağda erməni işğalçıların zəbt etdiyi bütün ərazilər düşməndən təmizlənəcək, Vətən müharibəsi qələbəmizlə başa çatacaqdır. Təhsil prosesi isə lazımi səviyyədə davam etdiriləcəkdir. "Arzularınız çin olsun" – tələbə gənclər!

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**